**Respublika**. - 2024. - 20 avqust. - № 177. - S. 7.

# Təmiz ətraf mühit və "yaşıl inkişaf" prioritetdir

**Mehparə Əliyeva**

***Qloballaşan dünyamızda dövlətlərarası münasibətlərin qurulması, mövcud əlaqələrin möhkəmləndirilməsi ilə bərabər, ətraf mühitin mühafizəsi də vacib amil kimi çıxış edir. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr ekoloji vəziyyəti yaxşılaşdırmaq, təbiətə vurulan ziyanın qarşısını almaq üçün həmrəylik nümayiş etdirir, beynəlxalq əhəmiyyətli tədbirlər keçirilir, iqlim dəyişmələrinin fəsadlarının aradan qaldırılması istiqamətində mühüm təşəbbüslər irəli sürülür.***

Ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərliyinin hər iki dövründə ölkəmizdə ekoloji vəziyyəti yaxşılaşdırmaq, yaşıllıq sahələrini artırmaq, sanitariya mədəniyyətini yüksəltmək kimi məsələlər diqqət mərkəzində saxlanılmış və bu istiqamətdə böyük işlər görülmüş, çoxşaxəli, müfəssəl proqramlar hazırlanmış, konkret icra mexanizmləri müəyyən edilmişdir. Təbiəti qorumağın, insan fəaliyyəti sayəsində ona vurulan ziyanın qarşısını almağın vacibliyini vurğulayan ulu öndər deyirdi: "Kim bir ağac kəsirsə, elə bil mənim qolumu kəsir". Hələ 1969-cu ildə respublika rəhbərliyinə yeni gəldiyi vaxtlarda Bakı şəhərinin Baş Planının müzakirəsinə həsr olunmuş konfransda çıxış edən Heydər Əliyev paytaxtın yenidən qurulmasını, havanı çirkləndirən, səs-küy yaradan obyekt və müəssisələrin şəhərin kənarına köçürülməsini, bəzilərinin yenidən tikilməsini, bəzilərinin ləğv olunmasını, əhalinin su təchizatının yaxşılaşdırılmasını, şəhərin baş kanalizasiya sisteminin qaydaya salınmasını, yaşıllıqların sayının artırılmasını, çimərliklərin abadlaşdırılmasını mühüm məsələ kimi qarşıya qoymuşdu. Həmin konfransda "Bakını nümunəvi sanitar mədəniyyət şəhərinə çevirək!" şüarı irəli sürülmüş və bu məqsədlə əhəmiyyətli işlər görülmüşdür.

Prezident İlham Əliyevin 2006-cı il 28 sentyabr tarixli sərəncamı ilə hazırlanan "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün kompleks tədbirlər planı" ümummilli liderin bu sahədə müəyyənləşdirdiyi fəaliyyət istiqamətini yeni mərhələyə yüksəltmişdir. Ekoloji vəziyyətin sağlamlaşdırılması üçün ölkədə çox böyük işlər görülmüş, müvafiq qurumlar tərəfindən şəhər ərazisində ağac, gül və bəzək kolları əkilmiş, çəmənliklər salınmış, bağ və park sahələri bərpa olunmuşdur. Dövlət başçısının müvafiq qərarı ilə 2010-cu il respublikamızda "Ekologiya ili" elan edilmişdir. Prezident İlham Əliyevin göstərişinə əsasən neft sənayesi və digər sənaye müəssisələrinin fəaliyyəti nəticəsində yaranan tullantıların ərazilərdən toplanması, neftlə çirklənmiş torpaqların təmizlənməsi, sənaye müəssisələrinin şəhərətrafı ərazilərə köçürülməsi və dünya standartlarına uyğun yeni sənaye müəssisələrinin yaradılması hər zaman diqqət mərkəzində saxlanılmışdır və bu gün də proses davam edir. Bakının yaşıllaşdırılması və ekologiyasının sağlamlaşdırılması məqsədilə birinci xanım Mehriban Əliyevanın "Hərəmiz bir ağac əkək!" təşəbbüsü ölkənin hər yerində rəğbətlə qarşılanır, təşkil olunan aksiyalarda müxtəlif növ ağaclar əkilir, yeni yaşıllıq sahələri yaradılır. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının milli əlaqələndiricisi, ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva jurnalistlərə açıqlamasında deyib: "Azərbaycan yaşıllaşdırma fəaliyyətinə görə regionun lideridir. Tək bu il ərzində 2 milyon ağac əkilib, gələcəkdə Azərbaycanın karbon emissiyalarının azaldılmasında bunun böyük rolu olacaq. İlin sonuna qədər bu rəqəmin 3 milyona çatdırılması nəzərdə tutulur". Bütün bunlar təhlükəsiz, sağlam, "yaşıl dünya" qurmaq istəyən dövlətlər tərəfindən yüksək qiymətləndirilir, neft-qaz hasil edən ölkə olmasına baxmayaraq, iqlim dəyişmələri ilə mübarizədə birgə səylərə qoşulan Azərbaycanın ətraf mühitin mühafizəsi istiqamətində müəyyənləşdirdiyi strategiya təqdir olunur. Bu baxımdan, iqlim fəaliyyətini sürətləndirmək və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına üzv ölkələrin 21-ci konfransında qəbul edilən Paris sazişinin məqsədlərinə nail olmaq üçün hər il dünyanın fərqli bölgəsində keçirilən COP-un növbəti sessiyasına Bakının ev sahibliyinin Şərqi Avropa Qrupuna üzv dövlətləri tərəfindən yekdilliklə dəstəklənməsi Azərbaycana göstərilən böyük etimadın, hörmətin təntənəsidir.

Ötən il dekabrın 15-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un ölkəmizdə keçirilməsi ilə əlaqədar müşavirədə ölkə başçımız bu məqama xüsusi olaraq toxunmuşdur: "Bəzi hallarda beynəlxalq aləm, beynəlxalq birlik anlayışı Qərbdə təhrif edilir. Beynəlxalq birlik 30-40 ölkə deyil. Beynəlxalq birlik dünyanın bütün ölkələridir və bu ölkələr yekdilliklə Azərbaycana öz böyük dəstəyini göstərmişdir. Bu, birinci dəfə deyil. Biz Qoşulmama Hərəkatına dörd il ərzində uğurla sədrlik edirik və burada da bizim sədrliyimiz 120 ölkənin dəstəyi ilə mümkün olmuşdur, hətta sədrliyimiz bir il uzadılmışdır. Bu, artıq böyük bir göstərici idi. Dünyanın 120 ölkəsi Azərbaycana öz dəstəyini ifadə etmişdir. Bu dəfə isə bütün dünya ölkələri bu dəstəyi göstərmişdir".

Göstərilən etimadı hər zaman layiqincə doğruldan, dünyada etibarlı tərəfdaş imici formalaşdıran Azərbaycan COP-la bağlı proqnozlaşdırıla bilən, hədəflərə, məqsədlərə, nəticələrə köklənmiş "yaşıl gündəlik" təqdim edir.

Neft-qaz ölkəsi olmasına baxmayaraq, "yaşıl enerji" növlərinin yaradılması və dünya bazarlarına nəqli iqlim dəyişmələrinə qarşı qlobal mübarizəni sistemli olaraq dəstəkləyən Azərbaycanın enerji siyasətinin prioritetidir. Bu səbəbdən ölkəmiz iqlim dəyişmələrinə qarşı birgə təşəbbüslər vasitəsilə öz təsirini gücləndirməyi və davamlı gələcəyə doğru inkişafı sürətləndirməyi, qazıntı yanacağı növlərindən əldə olunan gəlirlərin ədalətli, şəffaf şəkildə paylanılmasını mühüm vəzifə olaraq qarşıya qoyub. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulan Azərbaycan qlobal emissiyalarda payının cəmi 0.15 faiz olmasına baxmayaraq, 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəfləyir. Həmçinin "yaşıl enerji"yə keçid strategiyasında 2026-cı ilədək ölkəmizdə bərpaolunan enerji mənbələri elektrik enerjisi istehsalının 24 faizini təşkil edəcək. Dövlət başçısının "yaşıl enerji zonası" elan etdiyi Qarabağ və Şərqi Zəngəzurun 2050-ci ilədək "netto sıfır emissiya" zonasına çevrilməsi, bu ərazilərdə "karbon neytrallığı" konsepsiyasının həyata keçirilməsi nəzərdə tutulur.

Onu da qeyd edək ki, iqlim dəyişmələri nəticəsində respublikamızın ərazisindəki çaylarda suyun səviyyəsi aşağı düşmüş, eyni zamanda 30 il ərzində ərazilərimizin 20 faizdən çox hissəsinin erməni işğalı altında olması səbəbindən su ehtiyatlarımız xeyli azalmışdır. İqlim dayanıqlılığı çərçivəsində bu problemlərin həlli istiqamətində mühüm addımlar atılır ki, bunlardan biri də ölkədə 10 su rezervuarının yaradılmasının planlaşdırılmasıdır. Bütün bunlar müasir çağırışlara çevik cavab verən Azərbaycan dövlətinin ətraf mühitin mühafizəsi, ekologiyanın sağlamlaşdırılması istiqamətində mitiqasiya (istixana qazı emissiyalarının azaldılması və atmosferdən çıxarılması) və adaptasiya üzrə fəaliyyətinin göstəriciləridir. Beləliklə, iqlim dəyişmələrinin yaratdığı fəsadlara qarşı mübarizədə fəal iştirak edən Azərbaycan dayanıqlılığa, inklüziv inkişafa və təmiz enerjiyə xüsusi diqqət yetirməklə qlobal təşəbbüslərin həyata keçirilməsinə sadiqlik nümayiş etdirir.